# BIR ÖMRÜN MUSIQI YOLU

***Məmmədova Svetlana Nəsib qızı***

*Azərbaycan Dövlət Pedoqoji Universitetinin*

*Xarici  Dillər Mərkəzinin dosenti,*

*filologiya üzrə fəlsəfə doktoru*

*Üzeyir Hacıbəyli küç.68*

*svetlanamammedova72@gmail.com*

*055 696 18 40*

**Anahtar kelimeler:** besteci, kültür, opera, müzikolog, ilham kaynağı

**Özət**
Azerbaycan kültürünün ender şahsiyetlerinden biri olarak kabul edilen ve Doğu'daki ilk operanın yaratıcısı olan Üzeyir Hacıbeyli, müzik alanındaki hizmetlerinin yanı sıra güçlü bir yazar ve parlak bir yetenekti. Bir yandan Azerbaycan müziğinin gelişimi için operalar, operetler, bestelenmiş romanslar, kantatlar, çeşitli senfonik eserler ve şarkılar gibi güzel eserler yaratmış, diğer yandan ülkemizde müzik eğitiminin örgütlenmesi için genç kadrolar yetiştirmek için çalışmış ve bu alanda çeşitli topluluklar kurmayı hedeflemiştir. Bu nedenle, seçkin bir besteci ve müzik teorisyeni olarak geniş çapta ün kazanan Üzeyir Hacıbeyli, aynı zamanda seçkin bir yazar ve büyük bir gazeteciydi. Unutulmaz bestecinin edebi mirasını inceleyenler, Üzeyir Hacıbeyli'nin klasik Azerbaycan ve Doğu edebiyatının derin bir uzmanı olduğunu belirtir. "Köroğlu" hariç tüm opera ve operetlerinin metinlerinin yazarının Üzeyir Bey olması tesadüf değildir. Bu eserleri tek tek ele alıp incelediğimizde, bunların sanatsal içerikleri, dönemin toplumunun çelişkileri, yeni eğilimlerin değerlendirilmesi, eski ile yeni arasındaki mücadele ve yeniye öncelik verilmesi, yazarın ve edebiyat düşüncesinin ürünü olarak dikkati çekmektedir.

**Keywords:** composer, culture, opera, musicologist, source of inspiration

**Summary**
Uzeyir Hajibeyli, considered one of the rare figures of Azerbaijani culture, the creator of the first opera in the East, was a powerful writer and a brilliant talent, along with his services in the field of music. On the one hand, he created beautiful works for the development of Azerbaijani music - operas, operettas, composed romances, cantatas, various symphonic works, songs, and on the other hand, he worked to train young personnel for the organization of musical education in our country, and aspired to the formation of various collectives in this field. For this reason, Uzeyir Hajibeyli, who gained wide fame as an outstanding composer and music theorist, was also an outstanding writer and a great journalist. Those who study the literary heritage of the unforgettable composer note that Uzeyir Hajibeyli was a deep connoisseur of classical Azerbaijani and Eastern literature. It is no coincidence that the author of the texts of all his operas and operettas, except for "Koroglu", was Uzeyir Bey himself. If we take these works separately and analyze them, their artistic content, the contradictions

of society at that time, the appreciation of new trends, the struggle between old and new, and the giving of precedence to the latter are noteworthy as the product of the writer's and literary thought.

Dahi bəstəkar Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 1885-ci il sentyabrın 18-də Azərbaycanın səfalı güşələrindən biri olan Ağcabədidə anadan olmuşdur. Atası Əbdülhüseyn Hacıbəyli Şuşanın maarifpərvər ziyalılarından biri olmuş və Kərbəlayı Ələkbər bəyin qızı Şirin xanımla evlənmıişdir. Əbdülhüseyn Hacıbəyli təxminən 1901-ci ildə vəfat etmişdir. Üzeyir Hacıbəylinin uşaqlıq və gəncliyinin ilk çağları Azərbaycanın səfalı guşələrindən olan Şuşada keçmişdir. Şuşa yalnız öz təbii gözəlliyi, tarixi yaraşığı ilə deyil, həm də özünün elmə, mədəniyyətə, ədəbiyyat və incəsənətə verdiyi böyük şəxsiyyətləri ilə də nəzəri cəlb etmişdir. Pənahabad kimi tarixə daxil olan, Şuşa kimi məşhurlaşan bu şəhər Vaqiflərin, Zakirlərin, Natəvanların, Cabbar Qaryağdıoğlaarın, Seyid və Xan Şuşinskilərin ilham mənbəyi olmuşdur. Respublikamızın ilk musiqi ocağı kimi şöhrət qazanan Şuşa Üzeyir Hacıbəyli üçün də ilk ilham mənbəyi idi. Üzeyir Hacıbəyli haqlı olaraq yazır ki, "...Mən ilk musiqi təhsilimi uşaqlıq zamanı Şuşada, ən yaxşı xanəndə və sazəndələrdən almışam. O vaxt mən "Muğam" və "Təsnif oxuyardım. Səsim xanəndələrin xoşuna gələrdi. Onlar məni oxudar və öyrədərdilər..."2 Üzeyir Hacıbəyli ibtidai təhsilini Şuşada, Nikolayevski adına rus-tatar məktəbində almışdır. Uşaqlıqdan təbiətdən zövq alan, el ruhunda tərbiyələnən , vətən sevgisi ilə yaşayan Üzeyir sənətə böyük həvəs gostərmiş, zəngin xalq yaradıcılığı ilə maraqlanmağa başlamışdır. Şagird ikən bir neçə kiçik nağıl toplamış, üzünü köçürmüş və bir kitabça tərtib elmişdir. Üzeyir, 1899-cu ildə Şuşa rus-tatar məktəbini bitirdikdən sonra təhsilini davam etdirmək məqsədi ilə Zaqafqaziya müəllimlər seminariyasına daxil olur. Seminariya illəri Üzeyirin dünyagörüşünün inkişafında mühüm rol oynayır. O, kütləvi fənlərlə yanaşı, bilavasitə musiqi təhsili və nəzəriyyəsi ilə bağlı olan elmlərlə də maraqlanır, bir sıra alətlərdə çalmağı öyrənir. Tələbəlik illəri haqqında Üzeyir Hacıbəyli yazır: "...Seminariyada skripkada, violonçeldə və nəfəsli alətlərdə çalmağı öyrəndim. Mən orada musiqi nəzəriyyəsi haqqında da az-maz məlumat ala bildim".(1) Böyük bəstəkar kimi sevilən Üzeyir Hacıbəyli eyni ağırlıqda tarazlığa gələ biləcək ədəbi və publisistik yaradıcılıqla daim məşğul olub, amma musiqi sahəsindəki nailiyyətlərinin, uğurlarının təntənəsi sanki bu fəaliyyətin üzərinə kölgə salıb. Halbuki Mirzə Cəlil ədəbi məktəbinin ən qüdrətli nümayəndələrindən biri məhz Üzeyir Hacıbəyli olub.

Üzeyir bəyin həyat oldaşı Məleykə Terequlovanın adı pedaqoq, maarifçi, musiqişünas kimi mədəniyyət tariximizə düşüb. Məleykə xanım məşhur Terequlovlar ailəsindəndir. Terequlovlar ailəsi əslən Volqaboyu tatarlarındandır. Ailə 1845-ci ildə Tiflisə köçüb. Tiflisdə ilk dəfə olaraq qızların və oğlanların birgə oxuması üçün nəzərdə tutulan rus-tatar məktəbini də onlar açıb, xeyriyyəçiliklə də məşğul olublar. Məleykə Həsənağa qızı Terequlova 1893-cü ildə Tiflisdə doğulub. Buradakı Birinci Qızlar gimnaziyasında oxuyub, pedaqoji fəaliyyət göstərib. 1910-cu ildə Üzeyir bəyə ərə gedib və Bakıya köçüb. Üzeyir bəylə nikaha girəndən sonra Məleykə xanıç Hacıbəyova soyadını qəbul edib. Bəzi mənbələrə görə, Üzeyir bəy Məleykə xanımla hələ Qori müəllimlər Seminariyasında oxuduğu illərdə tanış olub. Məleykə xanımın qardaşı - Əli Tererulov Seminariyada Üzeyir Hacıbəyli ilə bir sinifdə oxuyub və hər bazar günü onu evlərinə qonaq aparıb. Elə həmin illərdə Məleykə xanımla da tanış olan Üzeyir bəy sonralar onunla evlənmək qərarına gəlib. Evləndikdən sonra Məleykə xanımın sağlamlığında yaşanan müəyyən problemlərə - qadın xəstəliyinə görə onların uşaqları olmayıb. Bu xəstəliyə görə o, hətta uzun müddət pedaqoji fəaliyyətinə ara verməli olub, müəllim işləməyi dayandırıb. Deyilənlərə görə, Məleykə xanım həyat yoldaşı Üzeyir bəyə başqa qadınla evlənib övlad sahibi olmağı təklif etsə də, təklif bəstəkar tərəfindən qəbul edilməyib. Bakıya köçəndən sonra pedaqoji fəaliyyətini davam etdirən Məleykə xanım Azərbaycanda konservatoriya təşkil olunanda ora

daxil olub, nəzəri biliklərə yiyələnib. Üzeyir bəyin ölümündən sonra bəstəkarın "Arşın mal alan" musiqili komediyasının klavirinin Bakıda, "Koroğlu" operasının klavirinin isə Moskvada nəşr olunub işıq üzü görməsində onun böyük əməyi və xidməti olub. Məleykə Terequlova-Hacıbəyova 1966-cı ildə Bakı şəhərində vəfat edib və onu vəsiyyətinə uyğun olaraq Üzeyir bəyin dəfn olunduğu Fəxri Xiyabanda dəfn olunub. Üzeyir Hacıbəyli haqqında “Üzeyir ömrü”, “Üzeyir Hacıbəyov”, “Əbədi iftixarımız” filmləri çəkilib. Dahi bəstəkarın doğum günü – 18 sentyabr 1995-ci ildən Azərbaycanın Milli Musiqi Günü kimi qeyd edilir. Hər il Azərbaycanda Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi festivalı keçirilir. Üzeyir Hacıbəylinin yaradıcılığında və Azərbaycan musiqi sənətinin inkişafında bəstəkarın inqilabdan əvvəl yazdığı ―Ər və arvad‖ (premyerası 1910-cu il 10 may), ―O olmasın, bu olsun‖ (premyerası 1911-ci il 25 aprel), ―Arşın mal alan‖ (premyerası 1913-cü il 25 oktyabr) operettaları xüsusi yer tutur. Operetta janrına müraciət etmənin səbəbini Hacıbəylidən soruşduqda o, belə cavab vermişdir: ―Musiqinin qüvvəsinə inam və musiqi vasitələri ilə ictimai-məişət eyblərini qamçılamaq həvəsi, musiqidə Azərbaycan ziyalılarının proqressiv qüvvələrinin ətalət və mədəniyyətsizliyə qarşı mübarizəsini əks etdirmək səyi məni komik musiqi janrı - operettanı yaratmağa sövq etdi. Ü.Hacıbəylinin operettalarını Qərbi Avropa operasının musiqili səhnə janrları, İtaliyada - opera-buff, Fransada - opera-komik, Almaniyada - zinqşpil, Rusiyada - komik opera janrları ilə müqayisə etmək olar. Lakin bu operettaların əhəmiyyətini Azərbaycan mədəniyyətinin tarixində M.F.Axundovun komediyaları ilə, ―Molla Nəsrəddin‖ jurnalının felyetonları ilə, Ə.Əzimzadə karikaturaları ilə, M.Ə.Sabirin poeziyası ilə müqaysiə etmək daha doğru olar

Yarandığı gündən sevilən, musiqisi və sözləri dillər əzbərinə dönən “Leyli və Məcnun” operası milli mədəniyyətimizin şanlı salnaməsinə çevrildi. Problemlərlə üzləşən operanın yaranmasında əsas Leyli rolunun ifaçısını seçmək idi. Qadın aktyorları səhnədə problem olduğu üçün bu rolun ilk ifaçısı çayçı Əbdürrəhman Fərəcov seçilib. Bir dəfə Üzeyir bəy çayçıda olarkən çayçı işləyən birinin xoş zümzüməsini eşidir və onu Operaya gətirərək Leyli rolunu ona verir. İkinci tamaşada Fərəcov Leyli rolunu oynamaqdan imtina edir. Miri adlı bir şəxsə Leylini oynamaq həvalə edilir. Sonralar Əhməd Ağdamski, Hüseynağa Hacıbababəyov, nəhayət, qadın ifaçılardan səhnəyə Sona Hacıyeva, Məhbubə Paşayeva, Yavər Kələntərli, Gülxar Həsənova, Cahan Talışinskaya, Sima xanım, Simuzər Hətəmova, Rübabə Muradova, Sara Qədimova, Zeynəb Xanlarova, Rəsmiyyə Sadıqova, Flora Kərimova, Nəzakət Məmmədova, Səkinə İsmayılova, Qəndab Quliyeva,Yaqut Abdullayeva, Gülyaz Məmmədova, Nəzakət Teymurova, Gülüstan Əliyeva və Aygün Bayramova olmuşdur

Folklorun lirik növündən götürülmüş, xalq üslubu və forması əsasında düzəldilən şeir parçalarına dramaturqun «Şeyx Sənan», «Arşın mal alan», «Şah Abbas və Xurşidbanu», «Harun və Leyla», «Əsli və Kərəm» əsərlərində də rast gəlmək olar (4, 94-98). Bu əsərlərdə də dramaturq xalq ədəbiyyatı nümunələrindən hadisənin məzmununu qüvvətləndirmək, obrazların daxili aləmini açmaq, vermək istədiyi ideyanı daha qabarıq şəkildə nəzərə çarpdırmaq üçün istifadə etmişdir.

Üzeyir Hacıbəyli təkcə musiqiçi deyildi – o, öz dövrünün ideoloji-siyasi proseslərinə təsir göstərən böyük bir maarifçi, yazıçı, dramaturq, publisist, pedaqoq və dərin təfəkkürə malik ictimai xadim idi. Onun yazdığı “Leyli və Məcnun” operası təkcə Azərbaycan musiqisində deyil, bütün Şərqdə operanın ilk nümunəsi kimi tarixə düşdü. “Koroğlu” operası isə milli qəhrəmanlıq ruhunun bədii təcəssümü oldu. O, həmçinin xalq musiqisinin sistemləşdirilməsi, notlaşdırılması və elmi əsaslarla tədrisi sahəsində misilsiz xidmətlər göstərdi. Azərbaycan Musiqi Akademiyasının və bir çox musiqi məktəblərinin əsasını qoydu.

**Ədəbiyyat siyahısı**

1. "Üzeyir Hacıbəyli Seçilmiş əsərləri " Abdulla Abbasov I CİLD "Şərq - Qərb" Bakı -2005

2.Üzeyi Hacıbəyov əsərləri . I cild, Bakı, 1965

3.Üzeyir Hacıbəyov-125 .Tərtib edən: Məcidova Nərgiz Redaktor: Əhmədova Sevil